

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 182 (20.836)

*28 sentyabr 2013-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Seçki hüququ ilə bağlı seminar keçirilmişdir

***Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində məhkumların seçki hüquqlarının izahı ilə əlaqədar seminar keçirilmişdir.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev qeyd etmişdir ki, muxtar respublika ərazisində fəaliyyət göstərən cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların seçki hüquqlarının həyata keçirilməsi ilə bağlı maarifləndirilməsi çox əhəmiyyətlidir. Bu tədbirlər məhkumların seçki hüququ və səsvermə qaydalarına daha əhatəli aydınlıq gətirilməsi məqsədilə keçirilir.

Tədbirdə "Məhkumların seçki hüququ" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova bildirmişdir ki, müasir dövrdə insanın hüquq və azadlıqları, onların təmin edilməsi və səmərəli şəkildə müdafiəsi hər bir dövlətin və cəmiyyətin inkişafının mühüm faktorudur. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Seçki hüququnun prinsipləri və seçki sisteminin əsasları ölkə Konstitusiyası ilə tənzimlənir. Vətəndaşlar seçmək və seçilmək hüququ əsasında ölkəmizdə dövlət işləri və ictimai işlərin idarə olunmasında iştirak edirlər. Vətəndaşlar seçki qanunları ilə müəyyən edilmiş qaydada ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçib-seçilirlər.

Məhkumların seçki hüquqlarının təminatları və məhdudiyyətlər barədə məhkumlara ətraflı məlumat verən müvəkkil ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş humanist cəza siyasətinin məhkumların hüquqlarının müdafiəsində xüsusi əhəmiyyət kəsb etdiyini bildirərək vurğulamışdır ki, humanist cəza siyasəti əsasında çoxsaylı əfv və amnistiya aktlarının qəbul edilməsi bu sahədə vəziyyətin yaxşılaşdırılmasına, cəzanın humanistləşdirilməsinə, cəmiyyətin sağlamlaşdırılmasına xidmət etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının şöbə müdiri Cəlil Rüstəmov çıxış edərək demişdir ki, ölkəmizdə ulu öndər Heydər Əliyevin həyata keçirdiyi humanizm siyasəti sayəsində əfvetmə institutu bərpa edilmiş, 1995-ci ildən əfv və amnistiya aktları qəbul edilməyə başlanmışdır. İndiyədək qəbul edilmiş 10 amnistiya aktı 100 mindən çox şəxsə tətbiq edilmişdir. Bütün bunlar məhkumların islah olunmalarına müsbət təsir göstərməklə cəmiyyətdə böyük rəğbətlə qarşılanmış, Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinin etibarlı təminatına əminlik yaratmışdır. Bu gün muxtar respublikanın penitensiar sistemində yaradılan şərait ən yüksək standartlara cavab verir. Məhkumların saxlanma şəraiti, islaholunma məsələləri, rejimə riayətolunma qaydaları diqqət mərkəzindədir. Xüsusilə məhkumların qidalanması, sağlamlığı və digər təminatları dövlət qayğısı ilə tam əhatə olunmuşdur. Bütün bunlar isə cəza-hüquq siyasətinin düzgün həyata keçirilməsinə və səmərəli olmasına yönəlmişdir. Cəzaçəkmə müəssisələrində olan məhkumların və istintaq təcridxanalarında olan təqsirləndirilən şəxslərin seçkilərdə iştirakı və səsvermələri də seçki qanunvericiliyində tənzimlənmişdir. Cəlil Rüstəmov məhkumlara seçki hüququnun həyata keçirilməsinin ümumi prinsipləri, ümumi, bərabər və birbaşa seçki hüququ, şəxsi, sərbəst və gizli səsvermə qaydaları barədə ətraflı məlumat vermişdir.

Seminarda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyev seçki hüququ, onun təminatının qanunvericilik əsasları və seçki hüquqlarının məhkəmə müdafiəsi ilə bağlı çıxış etmişdir.

Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov məhkumların prezident seçkilərində seçici kimi iştirak etməyinə qanunla heç bir məhdudiyyət qoyulmadığını bildirmişdir. Qeyd olunmuşdur ki, məhkumlar da azadlıqda olan digər seçicilər kimi qarşıdan gələn prezident seçkilərində layiq gördüyü namizədə səs verə biləcəklər.

Məhkumların 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsinin ərazisində yaradılması nəzərdə tutulan 3-49 saylı seçki məntəqəsində qeydiyyatda olduqlarını bildirən Məhərrəm Qasımov seçki prosesi, səsvermə qaydaları və qeydə alınmış namizədlər barədə ətraflı məlumat verərək diqqətə çatdırmışdır ki, barələrində həbs qətimkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd əsasında, azadlıqdan məhrumetmə yerlərində (cəzaçəkmə müəssisələrində) cəza çəkən şəxslər isə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənəd əsasında səs verəcəklər.

Çıxışında məhkumların və təqsirləndirilən şəxslərin daim dövlət qayğısı ilə əhatə olunduğunu vurğulayan Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Suliddin Əliyev qeyd etmişdir ki, istər istintaq təcridxanalarında saxlanılan, istərsə də cəzaçəkmə müəssisələrində cəza çəkən səsvermə hüququ olan şəxslər səs verə biləcəklər. Nazir bildirmişdir ki, təhlükəsizlik tam təmin ediləcəkdir. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin cəzaçəkmə müəssisələrində artıq 5 dəfə müxtəlif seçkilər keçirilmişdir. Bu seçkilərdə heç bir qanun pozuntusu qeydə alınmamışdır. Penitensiar müəssisələrin üzərinə məsuliyyətli vəzifələr düşür. Hər birimiz seçki qanunvericiliyindən irəli gələn vəzifələri və məsuliyyətləri dərindən dərk edirik. Seçki prosesində penitensiar müəssisələrin üzərinə qoyulan vəzifələrin nümunəvi təşkil edilib keçirilməsi istiqamətində öz səylərimizi əsirgəməyəcək, yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirəcəyik.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Ümumdünya Turizm Günü qeyd olunub

***27 sentyabr – Ümumdünya Turizm Günü münasibətilə dünən Naxçıvan Dövlət Universitetində ali təhsil ocağı ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkil etdiyi "Qədim yurda gənc baxış" adlı tədbir keçirilmişdir.***



Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru, biologiya elmləri doktoru, professor Saleh Məhərrəmov Ümumdünya Turizm Gününün təsis edilməsi tarixindən danışmışdır.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov çıxış edərək demişdir ki, zəngin mədəni-tarixi irsə, əlverişli təbii şəraitə malik olan Azərbaycanda turizm sektoru bu gün sürətlə inkişaf edir. Ölkədə turizmin inkişafına dair birinci dövlət proqramının reallaşdırılması müstəqilliyin ilk illərində tənəzzülə uğramış bu sahənin dirçəlməsinə əsaslı stimul olmuşdur. Bu proqram həmçinin beynəlxalq turizm bazarına inteqrasiyanın təməlini qoymuş, milli turizm kompleksinin rəqabətədavamlılığı yüksəlmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" və bu proqrama uyğun olaraq həyata keçirilən çoxsaylı layihələr ölkədə bu sahənin inkişafına yeni töhfələr verməkdədir. Proqramın başlıca məqsədi ölkədə yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılmasından ibarətdir.

Nazir qeyd etmişdir ki, Azərbaycanın ayrılmaz parçası olan muxtar respublikamızda turizmin inkişafı üçün zəngin potensial vardır. Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə həyata keçirilən quruculuq tədbirləri, turizm sektoruna göstərilən dövlət qayğısı qədim diyarımızda turizmin yeniləşməsinə, inkişaf etməsinə və turistlərin muxtar respublikamıza rahat şəkildə gəlib-getmələrinə geniş imkanlar açmışdır.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin müdiri Gülbuta Babayevanın, nazirliyin Elmi-Metodik Mərkəzinin direktoru Nizami Əzizəliyevin, "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzinin mühəndis-texnoloqu Minayə Bayramovanın və başqalarının məruzələri dinlənilmişdir.

Sonra "Naxçıvan balladası" adlı film nümayiş etdirilmişdir.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

**Mina QASIMOVA**

## Xanlıqlarda kompleks quruculuq işləri aparılır

***Şərur rayonunun Xanlıqlar kəndində kompleks quruculuq tədbirləri həyata keçirilir. Bu tədbirlərdən biri təhsilin səviyyəsini yüksəltmək üçün 200 şagirdin oxuduğu mövcud məktəb binasının yenidən qurulmasıdır. Binaya daha bir korpus artırılıb. Yeni məktəb binası 396 şagird yerlik olacaq.***

Məktəb 23 sinif otağından, 3 laboratoriyadan, hərbi kabinədən, kompüter otağından, elektron lövhəli siniflərdən, kitabxana və idman zalından ibarətdir.

İnsanın sağlamlığı cəmiyyətin sağlamlığıdır. Yalnız sağlam olanlar xalqın xeyrinə qurub-yaratmaq üçün özünün yaradıcı imkanlarından tam istifadə edə bilərlər. Xanlıqlarda ucaldılan ikimərtəbəli, 14 otaqlı həkim ambulatoriyası da bu məqsədə xidmət edir. Burada əczaxana, uşaq həkimi, stomatoloq, ginekoloq, doğuş, müayinə, manipulyasiya otaqları var. Yeni səhiyyə ocağında əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini yüksəltmək üçün hər cür şərait yaradılacaq.

Yeni obyektlərdən biri kənd mərkəzi üçün nəzərdə tutulub. İkimərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, YAP ərazi ilk təşkilatı, rabitə evi, klub, kitabxana, iclas zalı, baytarlıq məntəqəsi və sair üçün otaqlar hazırlanır.

İkimərtəbəli, yaraşıqlı məişət evində kənd sakinləri və qonaqlar ərzaq, sənaye və təsərrüfat malları mağazalarının, ət satışı dükanının, qadın gözəllik salonunun, bərbər, dərzi və ayaqqabı təmiri ustalarının xidmətlərindən yararlanacaqlar. Həyətlərdə yaşıllıqlar salınacaq, su xətti çəkiləcək, piyada yolları düzəldiləcək, oturacaqlar qoyulacaqdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları artıq obyektlərdə son tamamlama işləri aparırlar. Yeri gəlmişkən onu da deyək ki, onlar kənddə yol boyu yerləşən şəxsi həyətlərə divar çəkilməsi, suvanması və rənglənməsi işlərini də həyata keçirmişlər.

Şərur Rayon Yol Təmir-Tikinti İdarəsinin kollektivi isə kəndin içərisində 2,5 kilometrlik yolun yenidən qurulması işlərini davam etdirir.

**Xəbərlər şöbəsi**

## Yeni istehsal sahəsi yaradılır

***İnkişaf etmiş dövlətlərin təcrübəsi sübut edir ki, iqtisadiyyatın sabit tempini qorumaq üçün yerlərdə sahibkarlığın inkişafı və onun rolunun artırılması, müasir infrastrukturun yaradılması iqtisadi siyasətin prioritet məsələlərindən biri olmalıdır. Bu məqsədlə muxtar respublikamızda da sahibkarlıq mühitinin formalaşmasına, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsinə dövlət maliyyə dəstəyi göstərilir, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələri yaradılır.***

Naxçıvan şəhərində fəaliyyət göstərən "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti də özəl bölmənin, sahibkarlıq fəaliyyətinin inkişafına yaradılan şəraitdən, göstərilən dövlət qayğısından bəhrələnmişdir. İstehsal sahəsinin yaradılmasına 1 milyon 716 min 960 manat vəsait sərf olunmuşdur ki, bunun 1 milyon 12 min manatı Sahibkarlığa Kömək Fondu tərəfindən, 704 min 960 manatı isə daxili imkanlar hesabına ödənilmişdir.



Müəssisədə texnoloji proseslərə, sanitar-gigiyenik və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. Burada fəaliyyət göstərən istehsal sahəsində Türkiyənin "Forma makina LTD", "Ar-Can", "Alper" və "Makrev" firmalarının istehsalı olan, istehsal gücü saatda 300 kiloqram olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilmiş müasir texnoloji avadanlıqlar quraşdırılmış, istehsal prosesi avtomatlaşdırılmışdır. Vanilli, çiyələkli, bananlı, kakaolu, südlü tərkibdə istehsal olunan müxtəlif çeşiddə vafli məhsulları 15, 30, 35, 200, 230, 290 qramlıq, həmçinin 0,5, 2,5 və 5 kiloqramlıq taralarda qablaşdırılır. Müəssisədə müasir texnoloji avadanlıqlarla təmin olunmuş laboratoriya fəaliyyət göstərir, xammal və hazır məhsulların keyfiyyətinə ciddi nəzarət edilir.

Bu müəssisənin yaradılması yeni iş yerlərinin açılmasına da səbəb olmuşdur. Fabrikdə hazırda yüksək əməkhaqqı və xüsusi geyim formaları ilə təmin edilmiş 23 nəfər işçi çalışır. Yeni növdə unlu-qənnadı məmulatları istehsalı sahəsinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb olunması istiqamətində işlər davam etdirilir. Hazırda müəssisədə istehsal gücü saatda 300 kiloqram peçenye olan müasir texnoloji avadanlıqlar quraşdırılır.

**Kərəm HƏSƏNOV**

# Aktiv məskunlaşma və əhali gəlirlərinin davamlı artımı yaxın illərdə mənzil bazarı üzrə qiymətlərin daha da bahalaşacağından xəbər verir



*Aparılmış təhlillər göstərir ki, hazırda Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində mənzillərin orta qiyməti Qara dəniz sahili boyunca inzibati ərazilərdəki qiymətlərlə eyni səviyyədədir.*

Hazırkı dünya təcrübəsində inzibati ərazilərdə insanların məskunlaşma səviyyəsinin müəyyənləşdirilməsi, miqrasiya və əhali gəlirləri dinamikasının aşkarlanması məqsədilə müxtəlif metodlardan, o cümlədən mənzil bazarı üzrə mövcud qiymətlərin monitorinqindən istifadə olunur. Bu, ilkin və əsas şərtdir. Belə ki, əgər inzibati ərazidə ailələrin dayanıqlı məskunlaşmaya meyli güclüdürsə, bir qayda olaraq, mənzil bazarında tələb təklifi üstələyərək qiymətlərin yüksəlməsini şərtləndirəcəkdir. Qısacası, əhali məskunlaşması aktivləşdikcə həmin ərazidə mənzillərin qiymətinin bahalaşması qaçılmazdır. Bu gün Naxçıvanda bu prosesin normal gedişi əhali gəlirlərinin dinamik artımı fonunda baş verməkdədir. Aparılmış təhlillər göstərir ki, hazırda Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində mənzillərin orta qiyməti Qara dəniz sahili boyunca inzibati ərazilərdəki qiymətlərlə eyni səviyyədədir. Bu gün Naxçıvan şəhərində satışa çıxarılan 5 otaqlı mənzilin qiymətinə bir sıra ölkələrin paytaxtında və ya turizmin daha canlı olduğu ərazilərdə 2 ayrı mənzil almaq mümkündür.

Nəzərə almaq lazımdır ki, bu tip müqayisəli təhlillər adıçəkilən ərazilərdə orta təbəqənin daha çox manevr etdiyi areallar üzrə aparılır. Əks halda, bütün ərazilərdə fərqli hallara, "brend" imicli ərazilər üzrə daha yüksək qiymətlərə rast gəlmək mümkündür.

Mənzil bazarı üzrə qiymətlərin dinamikasına baxsaq, son on il ərzində bu sahədə orta hesabla 20 dəfəlik bahalaşma baş vermişdir. Mənzil bazarında alğı-satqının daha çox predmetinə çevrilmiş 3 otaqlı mənzillərin qiymət dinamikası aşağıdakı kimi olmuşdur:

**Mənzil bazarında son 10 il üzrə 3 otaqlı mənzillərin qiymət dinamikası**

*(ABŞ dolları ilə)*




## Müsbət miqrasiya saldosu mənzil bazarı üzrə qiymətlərin enməsinə imkan vermir

*Son on ildə 18768 nəfər ailə üzvü olan 3865 ailə daimi yaşayış üçün Naxçıvana gəlmişdir.*

Ümumi inkişafa paralel olaraq yaşayış standartlarının davamlı yüksəlişi, mənzil-kommunal sektorunda genişmiqyaslı yenidənqurma tədbirləri, infrastrukturun tamamilə yenilənməsi, qısacası, rahat yaşayış üçün əsas kriteriyaların tam təmin olunması muxtar respublika üzrə müsbət miqrasiya saldosunu şərtləndirməkdədir. Mühüm bir fakt ondan ibarətdir ki, son 10 ildə 18768 nəfər ailə üzvü olan 3865 ailə daimi yaşayış üçün Naxçıvana gəlmişdir. Bu tendensiyanın davam etdiyini və muxtar respublika üzrə il ərzində qurulan, orta hesabla, 4 mindən çox gənc ailələri də nəzərə alsaq, mənzil bazarında məcmu tələbin yaxın illərdə daha da güclənəcəyini proqnozlaşdırmaq mümkündür. Qeyd olunan ailələrin bir qismi fərdi ev inşa etməyə, digər böyük bir hissəsi isə hazır mənzil almağa üstünlük verir. İl ərzində Naxçıvan Muxtar Respublikası üzrə əhalinin şəxsi vəsaiti hesabına tikilən, orta hesabla, 300 min kvadratmetr yaşayış sahəsinin də məhz böyük bir hissəsi bu tip ailələrin payına düşür.

Qeyd olunan müsbət meyilli miqrasiya prosesini şərtləndirən əsas səbəblərin öyrənilməsi məqsədilə aparılan statistik müşahidənin yekunları da inzibati ərazimizdə reallaşdırılan islahatların effektiv nəticələrini açıq-aydın ortaya qoymaqdadır.

**Daimi yaşayış üçün Naxçıvanı seçənlərin ümumiləşdirilmiş ortaq yanaşmaları**

*(Dövlət Statistika Komitəsinin statistik müşahidəsi üzrə əsas cavablar )*

*Sual: Daimi yaşayış üçün niyə Naxçıvanı seçdiniz?*

***Respondentlərin ən çox verdiyi cavablar:***

- *əlverişli iqlimi var;*
- *idarəetmədə insan amilinin üstünlüyünü görürəm;*
- *elektrik və su təminatından razıyam;*
- *mənzillərimiz pulsuz təmir olunur;*
- *mənzilimizdə pulsuz qaz sobası, istilik xətləri və radiatorlar quraşdırılıb;*
- *uşaqlarımız müasirtipli uşaq bağçasına və məktəbə gedirlər;*
- *yolumuz yenidən qurulub;*
- *məhəllədaxili abadlığı və təmizliyi bəyənirəm;*
- *uyğun iş tapmaq asandır;*
- *müraciətlərimə operativ reaksiya verilir;*
- *ictimai nəqliyyatın işindən razıyam;*
- *inflyasiyadan qorunduğumu hiss edirəm;*
- *hüquqlarımın qorunduğunu görürəm;*
- *sabitliyi və cinayətsiz ortamı bəyənirəm;*
- *evimin və avtomobilimin mühafizəsi üçün əlavə xərc çəkmirəm;*
- *uşaq oğurluğunun olacağına inanmıram və uşaqlarımın ictimai nəqliyyatdan istifadəsinə icazə verirəm;*
- *cəmiyyət həyatından razıyam;*
- *bu ərazidə əsassız inanclara söykənən təriqətlərin yaranacağına inanmıram;*
- *bütün cəhətləri ilə buranı sevirəm.*

Qeyd olunan ümumiləşdirilmiş ortaq cavablar göstərir ki, daimi yaşayış üçün Naxçıvan Muxtar Respublikasının seçilməsi uğurlu islahatların məntiqi nəticəsidir və hazırda daha da intensivləşməkdə olan bu müsbət meyilli miqrasiya prosesi mənzil bazarına ciddi təsir göstərməkdədir.

## Qızılla müqayisədə daşınmaz əmlaka daha çox üstünlük verilir

*Son on ildə dünya bazarında qızılın qiyməti 3,2 dəfə, muxtar respublikanın mənzil bazarında isə qiymətlər 20 dəfə artmışdır.*

Uzun əsrlərdir ki, qızıl əmanətlərin saxlanılması üçün ən etibarlı vasitə hesab olunur. Hətta çağdaş dövrümüzdə çoxsaylı investisiya alətlərinin mövcudluğu şəraitində belə, qızıla olan tələbat əvvəlki kimi yüksək olmaqda davam edir. İri investisiya paketlərinin idarəediciləri hesab edirlər ki, istənilən zaman intervalında öz aktivlərinin müəyyən bir hissəsini bu qiymətli metalda saxlamaq olduqca sərfəlidir. Qızılın yüksək müdafiə xüsusiyyətləri onun belə müstəsna mövqeyə malik olmasını təmin edir. İnvestorlar uzunmüddətli investisiya qoyuluşu zamanı bu qiymətli metalın inflyasiyadan "qorxmadığını" nəzərə alaraq hərəkət edirlər. Mühüm bir fərqlilik ondan ibarətdir ki, qızıl digər maliyyə aktivləri ilə müqayisədə bazarın konyunkturundan az asılıdır və iqtisadi, siyasi təmayüllü manevrlərin təsirindən yan keçməyi daha yaxşı bacarır. Sonuncu maliyyə böhranı zamanı bu xüsusiyyət bir daha özünü təsdiqlədi. Belə ki, digər maliyyə aktivlərinin kotirovkalarının dayanmadan düşdüyü bir vaxtda qızılın qiyməti artmaqda davam edirdi. İnsanlar yenə də bu qiymətli metala üstünlük verirlər ki, valyuta bazarının gözlənilməz "ziqzaq"larından qoruna bilsinlər. Bir sözlə, qızıl hər zaman faydalı investisiya aktivi kimi standart olub və bu, uzun illər belə davam edəcək.

Lakin şəraitdən asılı olaraq, bir sıra hallarda gələcəyə kapital baxımından qızıl öz dominantlığını daşınmaz əmlak qarşısında itirə bilir. Bu tendensiya Naxçıvan Muxtar Respublikasında hazırda özünü göstərməkdədir. Belə ki, bu ərazidə aparılan islahatların effektliyi üzrə yüksək inam indeksinin mövcudluğu, aktiv məskunlaşma və davamlı artan əhali rifahı qarşılığında mənzil bazarında qiymətlərin artacağını proqnozlaşdırmağı bacaran sakinlər qızıla nisbətdə Naxçıvan ərazisində daşınmaz əmlaka daha ciddi meyil göstərirlər. 2009-cu ildə keçirilmiş əhalinin siyahıyaalınması zamanı məlum oldu ki, buradakı ailələrin 31 faizi əlavə olaraq iki və daha artıq mənzilin mülkiyyətçisidir. Bu qrup ailələr bu gün biləndə ki, son on ildə dünya bazarında qızılın qiyməti 3,2 dəfə, muxtar respublikanın mənzil bazarında isə qiymətlər 20 dəfə artıb, seçimlərinə görə sevinirlər. Bu, bazar iqtisadiyyatının sadə xüsusiyyətlərindəndir – əgər təşəbbüsünüz və seçiminiz doğrudursa, deməli, kapitalınız böyüyəcək.

**Son 10 ildə dünya bazarında qızılın qiyməti üzrə dinamika**

*(1 unsiya-ABŞ dolları)*




Diaqramdan da göründüyü kimi, muxtar respublikada mənzillərin qiymət artımı dünya bazarında qızılın qiymət artımını orta hesabla 6 dəfədən çox üstələmişdir. Eyni zamanda bu dövrdə torpaq bazarında torpağın qiyməti üzrə 75 dəfəlik bahalaşma qeydə alınmışdır.

İlkin baxışda bu mənzərə, yəni mənzil və torpaq bazarı üzrə davamlı bahalaşma meyilləri qayğılandırıcı görünsə də, prosesin iqtisadi tərəfi məqbuldur və tələb-təklif tarazlığı fonunda iqtisadi rıçaqlarla aktiv özünütənzimləmə başlanmışdır. Digər tərəfdən, mənzillərin və torpağın qiymətindəki bahalaşma öncə tikinti sektoru və məşğulluq sahəsində, sonra isə birbaşa bağlılıq çərçivəsində ticarət, nəqliyyat, sənaye sahələrində ümumi aktivliyi gücləndirməkdədir.

Qeyd olunanların məntiqi yekunu kimi Naxçıvan Muxtar Respublikasında mənzillərin və torpağın sürətlə bahalaşmasının səbəblərini 4 əsas istiqamət üzrə təsnifləşdirmək mümkündür:

*– ərazidə aktiv məskunlaşma mövcuddur;*

*– əhali gəlirləri sürətlə artır;*

*– insanlar hazırkı idarəetməyə və Naxçıvanın daha da parlaq gələcəyinə inanırlar. Bu səbəbdən də maliyyə aktivlərindən, qızıldan daha çox buradakı daşınmaz əmlaka meyil edirlər;*

*– ən əsası yaşayış standartlarının bütün parametrləri nəzərə alınmaqla, insanların burada yaşamaq istəyi güclüdür.*

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi**

# Muxtar respublika təhsili keyfiyyətin və yeniliyin simvoluna çevrilib

*Bunu Kəngərli rayonunda da bütün təzahürləri ilə görmək mümkündür*

***Təhsil cəmiyyət həyatının ən önəmli sahələrindən biri, millətin gələcəyini təmin edən başlıca amildir. Ölkəmizin tərəqqisi cəmiyyətimizin gələcək qurucuları olan gənclərdən asılıdır. Bu gənclər də məhz təhsil sistemində yetişir və formalaşır. Ona görə də muxtar respublikada təhsilə xüsusi önəm verilir, bu sahənin inkişafına böyük qayğı və diqqət göstərilir. Muxtar respublika rəhbəri gənclərin vətənpərvər, milli-mənəvi dəyərlərimizi qiymətləndirən və qorumağı bacaran vətəndaşlar kimi yetişməsini təhsil işçiləri qarşısında əsas vəzifə kimi qoyur. Bu gün muxtar respublika təhsili yeni-yeni uğurlara imza atır. Gündən-günə inkişaf edən təhsil infrastrukturu, yaradılan möhkəm maddi-texniki baza, yüksək səviyyəli müəllim potensialı bu uğurların qazanılmasına imkan yaradır.***



Bu sahəyə dövlətin xüsusi diqqət göstərməsi Kəngərli rayonunda da təhsil infrastrukturunun yeniləşməsinə zəmin yaradıb, ümumtəhsil məktəbləri binalarının yenidən qurulması, habelə yeni məktəblərin tikintisi prosesi geniş vüsət alıb. Yeni tikilən, əsaslı təmir olunan bütün məktəblər ən müasir avadanlıqlarla təchiz olunub. Həyata keçirilən islahatlar isə qazanılan uğurları şərtləndirən başlıca amillərdəndir. Məlumat üçün qeyd edək ki, hazırda Kəngərli rayonunun ümumtəhsil məktəblərində 3181 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 428 müəllim məşğul olur. Cari ildə rayon məktəblərini bitirən 300 məzundan 89 nəfəri tələbə adını qazanıb. 21 nəfər 500-700 intervalında bal toplayıb. Təzəkənd tam orta məktəbindən məzun olmuş Turac Budaqlı 673 bal toplayaraq rayon üzrə ən yüksək nəticəni əldə edib.

"Şagird nailiyyətlərinin dəqiq qiymətləndirilməsi, hər bir gəncin və yeniyetmənin fərdi hazırlığına, şəxsən, nəyə qadir olduğuna diqqət yetirilməsi təhsilin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir". Bu sözləri rayonun təhsil ocaqları ilə tanışlıq zamanı Təhsil Şöbəsinin müdiri Canik Abdullayev deyir. Rayonda təhsil sahəsində görülən işlərdən danışan şöbə müdiri qeyd edir ki, dövlətin ümumi təhsilin inkişafı naminə gördüyü işlər orta məktəb sisteminin uğurlu gələcəyinə, məktəblərimizin, sözün əsl mənasında, bilik-savad mərkəzlərinə çevriləcəyinə əmiyyətdə böyük inam yaradır. Bu gün xüsusi diqqət yetirilməsi gərəkən məsələlərdən biri də şagird nailiyyətlərinin qiymətləndirilməsinə, müəllimin fəaliyyətinə, "müəllim-şagird", "məktəb-valideyn" münasibətlərinə, tədris prosesinin idarə olunmasına, eləcə də müəllim hazırlığı məsələlərinə önəm verilməsidir. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin mühüm tərkib hissəsi şagirdlərin bilik, bacarıq və vərdişlərinin yekun buraxılış imtahanları vasitəsilə yoxlanılmasıdır. Bu həm də məktəblərin fəaliyyətinin keyfiyyət səviyyəsini göstərir. Təhsildə müvəffəqiyyət əldə etmək üçün, birinci növbədə, keyfiyyətə fikir veririk, qabaqcıl təcrübələrin üzə çıxarılması və tətbiqi, açıq dərslərin təşkili sahələrində ardıcıl iş aparırıq. Ötən dərs ilində qəsəbə və kənd məktəbləri tədrisdə keyfiyyəti təmin etməyə çalışıblar. Qiymətləndirmə metodlarının daha şəffaf, daha qüsursuz olması normal təhsil üçün vacib şərtdir. Şagird görəndə ki, müəllim onun əməyini dəqiq qiymətləndirir, şişirtməyə, yaxud qərəzçiliyə yol vermir, onda daha da həvəslənir, daha yaxşı oxuyur, öz üzərində daha yaxşı çalışmağa başlayır. Mən bu sözləri deyərkən ulu öndərimiz Heydər Əliyevin bir kəlamını xatırlayıram: ***"Ədalət hər yerdə lazımdır, amma məktəbdə ədalət hamısından çox lazımdır… Əgər məktəbdə gənc, uşaq ədalətsizliklə qarşılaşırsa, onda belə təsəvvür yaranır ki, elə bu dünya ədalətsiz dünyadır. Buna yol vermək olmaz".*** Məncə, fikrimi əsaslandırmaqdan ötrü bundan dəqiq deyilmiş əsas, bundan möhkəm təməl göstərmək çətindir.

Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva deyir ki, son illərdə muxtar respublika rəhbərinin səyi ilə müasir standartlara uyğun tikilən və təmir olunan, ən yeni texnologiyalarla təmin edilən məktəblərimizdə şagirdlərin yaxşı nəticə göstərməsi, yeni-yeni uğurların qazanılması vətəndaşlıq borcuna sədaqətin nümunəsidir. İstər pedaqoji kollektiv, istərsə də şagirdlərimiz üzərlərinə düşən məsuliyyəti dərk edir, göstərilən dövlət qayğısına yaxşı nəticələrlə cavab verirlər. Məktəbimizdə təlim-tərbiyənin səmərəliliyini artırmaq məqsədilə müxtəlif məzmunlu müsabiqə və yarışlar keçirilir. Xüsusi istedada malik olan yeniyetmə və gənclərlə aparılan işə ayrıca diqqət yetirilir. Şagirdlərin Vətənə, doğma torpağa, milli adət və ənənələrimizə, ata-babaların döyüş yoluna sədaqət, hərbi vətənpərvərlik ruhunda tərbiyəsi birinci dərəcəli vəzifələr hesab olunur. "Şahin" və "Cəsurlar" hərbi-idman oyunlarının keçirilməsinə diqqət əvvəlki illərdəkinə nisbətən xeyli artırılıb.

"Azərbaycan xalqının milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunub. Sosial statusundan, tutduğu vəzifədən asılı olmayaraq, hər kəs cəmiyyətdəki mövqeyinə, qazandığı biliklərə, ümumən, bir şəxsiyyət kimi formalaşmasına görə özünü məhz müəllimlərinə borclu sayır. Çalışırıq ki, xalqımızın biz müəllimlərə qarşı göstərdiyi hörmət və ehtiramı qoruyub saxlayaq, dövlətimizin göstərdiyi diqqət və qayğıya layiqli cavab verək". Bunu 25 ildir, pedaqoji fəaliyyətlə məşğul olan, Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuş Rəsmiyyə Seyidova deyir. Onun dediklərindən:

– Muxtar respublikamızda, eləcə də müəllim kimi fəaliyyət göstərdiyim Kəngərli rayonunda bütün sahələrdə olduğu kimi, son illər ərzində təhsil sahəsində də çox ciddi irəliləyişlər, nəzərə çarpacaq uğurlar əldə edilib. Bu uğurlar hər birimizi sevindirir və fərəhləndirir. Böyük nailiyyətlərlə müşahidə olunan təhsil islahatları gələcəyimiz olan gənclərin hərtərəfli inkişafına xüsusi önəm verildiyindən, elmin, təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində görülən məqsədyönlü işlərdən xəbər verir. Bu günə qədər muxtar respublikada onlarla müəllimin fəxri ada, dövlət təltiflərinə, mükafatlara layiq görülməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsil və elm sahəsində çalışan çoxsaylı ziyalılara yüksək rəğbət və etimadını nümayiş etdirir.

Böyük Nizami kitabı "tükənməz mənəvi qida", A.S.Puşkin "qəlbə həmdəm", V.Q.Belinski "zəmanənin həyatı", M.Qorki "bilik, xoşbəxtlik və səadət mənbəyi" adlandırmışlar. V.Şekspir kitabı "tacdan qiymətli", Y.Komenski "müdrikliyi yayma vasitəsi", M.Siseron "kitabsız evi ürəksiz bədən" kimi təsəvvür etmişlər. Böyük rus cərrahı N.İ.Piroqov adamların əxlaq və əqidəcə tərbiyə olunub yetişməsində kitabın rolunu yüksək qiymətləndirərək demişdir: "Hansı kitabları oxuduğunu de, mən sənin kim olduğunu söyləyim". Son illərdə Kəngərli rayon ümumtəhsil məktəblərinin kitabxanaları yeni kitablarla zənginləşdirilib. Hazırda rayon məktəblərinin kitabxanalarında müxtəlif sahələri əhatə edən minlərlə kitab var. Şagirdlərin bu bilik incilərindən lazımi şəkildə istifadə etməsi üçün hər cür imkanlar mövcuddur.

***Təhsil millətin gələcəyidir. Bu sahədə muxtar respublikamızda və bölgələrdə çox böyük işlər görülür. Tədris ocaqlarında maddi-texniki bazanın möhkəmləndirilməsi, dünya təcrübəsinin tətbiqi, yeni pedaqoji təfəkkürün formalaşması, müasir təlim metod və texnologiyalarından istifadə və digər yeniliklər, irəli sürülən layihələr təhsil islahatının uğurla davam etdirildiyinə dəlalət edir. Bu irəliləyişdən ruhlanan Kəngərli rayonunun pedaqoji kollektivləri yeni tədris ilində də tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü iş aparır, qurucu gənc nəsil yetişdirmək üçün bütün imkanlardan səmərəli istifadə edir, təlimin səviyyəsini yüksəldirlər.***

**Səbuhi HÜSEYNOV**

# Ulu keçmişimizə pəncərə olan muzey…



***Tariximizi yaşadan hər saxsı parçası, daş parçası, digər varidatlarımız, qiymətli sərvətimiz, onların toplandığı muzeylər misilsiz xəzinə, müqəddəs məbədgahımızdır. Ulu öndər Heydər Əliyev deyirdi: "Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır".***

Hər tərəfi tarixin canlı nişanəsi ilə zəngin olan diyarımızda bu sahədə təqdirəlayiq işlər görülür, geniş muzeylər şəbəkəsi yaradılır. İndi muxtar respublikamızın bütün bölgələrində o yerin dününü işıq salan, bu gününə ayna tutan muzeylər fəaliyyət göstərir. O cümlədən səsi, sorağı "Kitabi-Dədə Qorqud" dastanından gələn, hər qarışında oğuz ənənələrinin ayaq izi yaşayan sərhəd bölgəsi Sədərəkdə, yurdumuzun alınmaz qeyrət qalasında da.

1995-ci ildən fəaliyyət göstərən rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün Heydərabad qəsəbəsində 2010-cu ildə yeni bina ucaldılmışdır. İkimərtəbəli yaraşıqlı bina milli üslubda inşa edilmiş, gözoxşayan ornamentlərlə bəzədilmişdir.

Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Novruz Əliyev məlumat verdi ki, 2002-ci ildə muzeyin 4 bölməsi, 613 eksponatı olmuşdur. Hazırda isə onların sayı 2016-ya çatdırılmışdır. Muzeyin ekspozisiyalarındakı 16 bölmədə Sədərəyin qədim tarixini əks etdirən eksponatlar, o cümlədən mühüm elmi və tarixi əhəmiyyət kəsb edən arxeoloji qazıntılar nəticəsində tapılan əşyalar, dekorativ tətbiqi sənət, xalçaçılıq nümunələri, kənd təsərrüfatı alətləri, bütövlükdə, 1260 eksponat nümayiş etdirilir. 756 eksponat isə muzeyin fondunda mühafizə olunur.

Novruz Əliyev onu da bildirdi ki, muzeydə 7 nəfər çalışır və onların səmərəli fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılmışdır. İş otaqları lazımi avadanlıqlarla, muxtar respublikamızda istehsal olunan keyfiyyətli mebel dəstləri ilə təmin olunmuş, binada müasir istilik və işıqlandırma sistemləri quraşdırılmışdır.

Muzey binasının birinci və ikinci mərtəbələrində yerləşən ekspozisiya zallarında bələdçi Həbib Məmmədov bizi rayonun canlı tarixi keçmişi və bu günü ilə bağlı nümayiş etdirilən eksponatlarla yaxından tanış etdi.

Muzeydə qədim və orta əsrlərə aid zəngin nümunələr, nadir əşyalar çoxdur və onların hamısı rayon ərazisində yerləşən qədim yaşayış məskənlərindən – Kərki nekropolundan, Vəlidağ ətəklərindən, "Sədərək qalası", "Kültəpə", "Şəhər yeri", "Bulaq başı", "Karvansara" adlanan yerlərdə aparılan arxeoloji qazıntılar zamanı tapılmışdır. Muzeyin arxeologiya və etnoqrafiya bölməsində nümayiş etdirilən Tunc dövrünə və Orta əsrə aid eksponatlar – daş baltalar, çapacaqlar, küpə, çölmək, həvəngdəstələr, dən daşları və digər nümunələr Sədərək torpağında hələ eramızdan əvvəl II minilliyin sonu, I minilliyin əvvəllərindən yaşayış olduğunu təsdiqləyir. Bölgənin qədim dövründən bu günədək olan şərəfli tarixini özündə əks etdirən dəyərli arxeoloji tapıntılar, mənəvi dəyərlərimizin parlaq təcəssümü olan mədəniyyət nümunələri, xalq tətbiqi sənət əsərləri, nümizmatik materiallar, heykəltəraşlıq, qrafika, Erkən Dəmir dövrünə aid keramika məmulatları, soyuq silahlar, misgərlik nümunələri muzeyin ekspozisiya zallarında geniş yer tutur. Bölmələrdə nümayiş olunan dulusçuluq, zərgərlik, toxuculuq məmulatları, dekorativ bəzək əşyaları qədim İpək Yolu üzərində yerləşən ulu yurdda sənətkarlığın, mədəniyyətin inkişafından xəbər verir. Eləcə də muzeyin kompozisiyasına rövnəq verən qədim əkinçilik alətləri – xış, kotan, vəl, mərəndi, mərgüz, göndən hazırlanmış xəlbir, nehrə və sair əşyalar sədərəklilərin hələ qədim zamanlardan əkinçiliklə, maldarlıqla məşğul olduqlarını göstərir.

Bölgənin flora və faunasından bəhs edən bölmə də öz zənginliyi ilə diqqəti çəkir, bu yurdun əsrarəngiz təbiəti haqqında dolğun təəssürat yaradır.

Yeri gəlmişkən onu da deyək ki, muzeydə "Sədərək" sözünün etimoloji mənası, elmi şərhi barədə bilgilər də yer almışdır. "Kitabi-Dədə Qorqud"da adıçəkilən Sədərəyin Uşun oğlu Səkrəyin adından yaranma ehtimalı, türk səyyahı Övliya Çələbinin, fransız səyyahı Jan Şardenin XVII əsrdə Sədərəyin çox böyük yaşayış məntəqəsi olması, geniş meyvə bağları, abad meydanları, yaraşıqlı binaları, məscidləri, dükan-bazarı barədə məlumatları da diqqət çəkir.

Ulu öndər Heydər Əliyev respublika rəhbəri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olanda 7 dəfə Sədərəyə gəlmiş, yerli əhali ilə görüşmüş, onların problemlərinin həllinə yaxından köməklik göstərmişdir. Muzeydə ümummilli liderin Sədərək görüşlərini əks etdirən sənədlər, fotoşəkillər, kitablar, mətbuat nümunələri tamaşaçıların marağını daha çox cəlb edir.

"Sədərək qeyrət qalasıdır" bölməsində isə 1990-cı illərdə 14 dəfə erməni təcavüzünə məruz qalan Sədərəyin ağır həyatı, mərdliklə müdafiə olunması canlı eksponatların dili ilə tamaşaçıya çox həqiqətləri danışır. Bu torpağa qanı çilənən 108 şəhid, o cümlədən 52 sədərəkli şəhid haqqında muzeydə dolğun məlumat almaq olar.

Bu yurdun elm adamları, görkəmli ziyalıları haqqında da bilgilər muzeydə özünə yer almışdır.

Sədərək rayonunun son 10 ildəki sosial-iqtisadi inkişafını əks etdirən bölmə də tamaşaçıların ixtiyarına verilmişdir. Muzeyin foyesində isə rayon mərkəzi Heydərabad qəsəbəsinin dünəni və bu gününü əks etdirən stend asılmışdır.

*Muzeylə tanışlıq qəlbimizdə xoş hisslər oyatdı. Söhbət əsnasında muzeyin əməkdaşları onu da bildirdilər ki, ekspozisiyada nümayiş etdirilən eksponatların sayının daha da artırılmasına çalışırlar. Çünki muzeyin hər bir eksponatı milli sərvətimizdir. Bu sərvəti qorumaq və daha da zənginləşdirmək isə muzey işçilərinin həm də vətəndaşlıq borcudur.*

**Cəfər ƏLİYEV**

# Seçki marafonu

## 9 oktyabr Azərbaycan Respublikası Prezidentinin seçkiləri günüdür

## Prezident seçkiləri - 2013

**Hörmətli seçicilər!**

Yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə seçki məntəqələrinin yaradılmasına yalnız o halda yol verilir ki, hərbi qulluqçuların ümumi seçki məntəqələrinə ictimai nəqliyyatla çatdırılması üçün 1 saatdan çox vaxt lazım olsun və hərbi qulluqçuların ümumi sayı 50-dən artıq olsun.

Belə hallarda seçki məntəqələri səsvermə gününə ən azı 50 gün qalmış, müstəsna hallarda isə müvafiq dairə seçki komissiyasının qərarına uyğun olaraq, hərbi hissələrin komandirləri tərəfindən səsvermə gününə azı 5 gün qalmış yaradılır.

Sərhəd qoşunlarının hərbi qulluqçuları və hərbi münaqişə zonasında yerləşdirilən hərbi qulluqçular, habelə müvafiq icra hakimiyyəti orqanlarının təqdimatı əsasında ümumi məntəqələrdə səs verməsi mümkün olmayan hərbi hissələrin hərbi qulluqçuları hərbi hissələrdə yaradılan seçki məntəqələrində səs verirlər.

**Seçiciyə seçki bülleteni zabitin şəxsi vəsiqəsi və ya hərbi bilet təqdim edildikdə verilir.**

Seçki məntəqələrində seçki komissiyasının işlədiyi otağa və səsvermə otağına Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada məntəqə və yaxud seçki komissiyalarının bütün üzvlərinin, qeydə alınmış namizədlərin və onların səlahiyyətli nümayəndələrinin, siyasi partiyaların, siyasi partiya bloklarının səlahiyyətli nümayəndələrinin, müşahidəçilərin maneəsiz daxil olmasına imkan yaradılmalıdır.

Hərbi hissələrin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin siyahıları hərbi hissə komandirlərinin seçicilər haqqında məlumatı əsasında səsvermə gününə azı 25 gün qalmış məntəqə seçki komissiyaları tərəfindən dəqiqləşdirilir.

**Hərbi hissələrdə seçki məntəqələri hərbi hissə komandiri tərəfindən elə yerdə təşkil edilməlidir ki, həmin seçki məntəqəsinə giriş maneəsiz olsun.**

Hərbi hissədə seçki məntəqəsi yaradılmayıbsa, hərbi hissənin komandiri seçicilər haqqında məlumatları dəqiqləşdirir və səsvermə gününə azı 35 gün qalmış müvafiq məntəqə seçki komissiyasına təqdim edir. Seçici siyahıları 2 nüsxədə tərtib edilir. Seçici siyahısına daxil edilmiş seçicilər haqqında məlumatlar siyahıda əlifba qaydasında yerləşdirilir. Siyahılarda seçicinin soyadı, adı, atasının adı, doğulduğu il, məskunlaşma yerinin ünvanı və seçki məntəqəsinin nömrəsi göstərilir.

**Hərbi hissədən kənarda yaşayan hərbi qulluqçular seçici siyahılarına yaşayış yeri üzrə ümumi əsaslarla daxil edilirlər.**

**Hərbi hissələrdə yerləşən hərbi qulluqçuların, onların ailə üzvlərinin və hərbi hissələrin hüdudlarında yaşayan digər seçicilərin seçici siyahılarına daxil edilməsi üçün Azərbaycan Respublikası vətəndaşlarının yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyatını aparan orqanların, ya da hərbi hissələrin, yaxud hərbi xidmətdə və ya hərbi çağırış üzrə qulluqda olan vətəndaşların hərbi hissəsinin ştat cədvəlinə daxil edilməsi barədə hərbi hissə komandirinin əmri ilə təsdiqlənən daimi və ya daha çox yaşama faktı əsas götürülür.**

Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətdə olan Azərbaycan Respublikası vətəndaşlarının seçici siyahılarına daxil edilməsi üçün onların Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşaması faktı, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin müəyyənləşdirdiyi uzunmüddətli xarici ezamiyyətlərdə olması faktı əsas götürülür.

Səsvermə günü xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində olan seçicilər orada yaradılan seçki məntəqələrində şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd əsasında seçici siyahılarına daxil edilirlər. Səsvermə günü adıçəkilən yerlərdə Seçki Məcəlləsinin 35.4-cü maddəsinə uyğun olaraq seçki məntəqəsi yaradılmayıbsa, belə seçicilər göstərilən müəssisələrin rəhbərlərinin məntəqə seçki komissiyasına təqdim etdikləri məlumatlar əsasında seçici siyahılarına daxil edilirlər. Həmin məlumatda şəxsiyyət vəsiqələrinin və ya onları əvəz edən sənədlərin tam göstəriciləri əks etdirilməlidir.

Xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində seçki məntəqələri o zaman təşkil edilə bilər ki, həmin yerlərdə qalıb müalicə olunan və ya dincələn seçki hüquqlu vətəndaşların orta sayı 50-dən artıq olsun.

Hərəkət edə bilməyən Azərbaycan Respublikası vətəndaşları yaxın qohumlarının və ya onlarla ələqəsi olan digər şəxslərin məlumatları əsasında seçici siyahılarına daxil edilə bilərlər. Bu halda hərəkət edə bilməyən vətəndaşın şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd təqdim edilməlidir.

Xarici dövlətlərdə olan aktiv seçki hüququna malik Azərbaycan Respublikası vətəndaşları seçki məntəqəsinə gəldikdə xarici pasport və ya onu əvəz edən sənəd əsasında seçici siyahılarına daxil edilirlər.

**Seçici siyahıları ümumi tanışlıq üçün təqdim edildikdən sonra seçki məntəqəsinin ərazisində məskunlaşan və hər hansı səbəbdən siyahılara daxil edilməyən seçicilər şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd, zərurət olduqda isə həmçinin seçicinin həmin seçki məntəqəsi ərazisində daha çox yaşamasını təsdiq edən sənədlər əsasında məntəqə seçki komissiyası tərəfindən seçici siyahılarına əlavə edilirlər.**

**Müalicə alan və dincələn seçicilərin orta sayı haqqında məlumat xəstəxana, sanatoriya, istirahət evləri müdiriyyətinin arayışı əsasında təsdiq olunur. Yanlış məlumat verən müəssisə rəhbərləri qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə cəlb edilirlər.**

Seçki məntəqələri müvafiq dairə seçki komissiyalarının qərarı ilə səsvermə gününə azı 50 gün qalmış, müstəsna hallarda isə Mərkəzi Seçki Komissiyasının qərarı ilə ifadə edilmiş razılıq əsasında səsvermə gününə azı 5 gün qalmış yaradıla bilər. Belə seçki məntəqələri yerləşdikləri yer üzrə yaradılmış seçki dairəsinin tərkibinə daxil olur.

İstintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin (istintaq təcridxanalarında saxlanılan, təqsirləndirilən şəxslərin və cəzaçəkmə müəssisələrində cəza çəkən məhbusların və digər seçicilərin) siyahıları həmin müəssisələrin rəhbərlərinin seçicilər haqqında məlumatı əsasında səsvermə gününə azı 25 gün qalmış məntəqə seçki komissiyası tərəfindən dəqiqləşdirilir.

İstintaq təcridxanalarında və müvafiq cəzaçəkmə müəssisələrində seçki məntəqəsi yaradılmayıbsa, həmin müəssisə rəhbərləri seçicilər haqqında məlumatları toplayıb dəqiqləşdirir, səsvermə gününə azı 35 gün qalmış müvafiq məntəqə seçki komissiyasına təqdim edirlər.

Barələrində məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmayan və həbs qətimkan tədbiri seçilmiş şəxslər istintaq təcridxanaları rəhbərliyinin məntəqə seçki komissiyasına təqdim etdiyi məlumat əsasında seçici siyahılarına daxil edilirlər.

Azadlıqdan məhrumetmə yerlərində, istintaq təcridxanalarında seçki məntəqəsi yaradılmadıqda həmin yerlərdə səsvermənin keçirilməsini müvafiq məntəqə seçki komissiyasının azı 2 üzvü seçicilərin sayına uyğun miqdarda seçki bülleteni götürərək müşahidəçilərin iştirakı ilə səsvermə keçirilməsini təmin edir.

Müvəqqəti saxlanılma təcridxanasının müdiriyyəti inzibati qaydada həbs olunan şəxslərin səs vermək üçün yazılı ərizələrini yaxınlıqdakı seçki məntəqəsinin məntəqə seçki komissiyasına təqdim edir. Məntəqə seçki komissiyasının 2 üzvü daşınan seçki qutusunu bağlayıb möhürləyir və inzibati qaydada saxlama yerlərində cəza çəkən şəxslərin səsvermənisini təmin edir.

**İstintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər və cəzaçəkmə müəssisələrində cəza çəkən, səs vermək hüququ olan şəxslər Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən hazırlanıb təsdiq edilmiş xüsusi vəsiqə əsasında səs verirlər.**

Xüsusi vəsiqənin forması Mərkəzi Seçki Komissiyası ilə razılaşdırılır. Məhkumun fotoşəkli olan xüsusi vəsiqə onun doğulduğu tarix göstərilməklə, cəzaçəkmə müəssisəsi müdiriyyətinin imzası ilə möhürlə təsdiqlənməlidir.

*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası*

## "Gənclik" Mərkəzində film nümayiş olunub



Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Ağ atlı oğlan" filmi nümayiş etdirilib. Gənclərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onlara dövlətçiliyə sədaqət ruhunun aşılanması məqsədilə təşkil edilən tədbirdə muxtar respublikamızın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və Heydər Əliyev adına Hərbi Liseyin kursantları iştirak ediblər. Qarabağın azadlığı uğrunda erməni qəsbkarlarına qarşı aparılan müharibədə yaşlılarla bərabər, məktəbli oğlanın da qəhrəmanlıqla vuruşmasından bəhs edən və tamaşaçıları fədakarlığa, vətənpərvərliyə çağıran film gənclərdə böyük maraq doğurub.

*Xəbərlər şöbəsi*

## Ahıllar evinin sakinlərinin Naxçıvan şəhərinə gəzintiləri təşkil edilib

Şahbuz şəhərində fəaliyyət göstərən Ahıllar evi sakinlərinin rahat yaşamaları üçün hər cür şərait yaradılıb. Onların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə müxtəlif tədbirlər, o cümlədən muxtar respublikamızın tarixi, görməli yerlərinə gəzintilərin təşkili artıq ənənə halını alıb.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, 1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Ahıllar evinin 13 sakininin Naxçıvan şəhərinə gəzintiləri təşkil edilib. Tədbir iştirakçıları Duzdağ Fizioterapiya Mərkəzində olub, Əcəmi seyrəngahını gəzərək Naxçıvan Dövlət Xalça və Açıq Səma Altında muzeylərin eksponatlarına, həmçinin Mömünə xatın türbəsinə baxıblar.

Gəzinti iştirakçılarına müalicə mərkəzinin fəaliyyəti, duz şaxtalarının bronxial-astma xəstələrinə müalicəvi təsiri, muzeylərdə nümayiş etdirilən eksponatlar, həmçinin tarixi abidələrimiz haqqında ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Gəzinti iştirakçıları üçün nahar və çay fasiləsi təşkil olunub.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti*

## İdmançımız respublika çempionatının mükafatçısıdır

Sentyabr ayının 20-dən 24-dək paytaxt Bakı şəhərində üzgüçülük üzrə Azərbaycan Respublikası Yay Çempionatı keçirilmişdir. Çempionatda qələbə uğrunda səylə mübarizə aparan bir idmançımız muxtar respublikamıza medalla qayıtmışdır. Belə ki, dəfələrlə ölkə və muxtar respublika səviyyəli birinciliklərin mükafatçısı olmuş Şahin Qubadov bu yarışda növbəti uğurlu nəticəsini göstərə bilmişdir. O, üzgüçülüyün 50 metrə brass növü üzrə öz qüvvəsini sınayaraq üçüncü yerə çıxmışdır. Yarışda fəxri yeri tutmuş idmançımız diplom və medalla təltif edilmişdir.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti*

**İtmişdir**

Quliyeva Turanə Məmmədrza qızının adına Naxçıvan Muxtar Respublikası Kompüter Təlim-Tədris və İnternet Mərkəzi tərəfindən 10 aprel 2007-ci il tarixdə verilmiş A-7050421418 seriya nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Babayeva Leyla Kamil qızının adına verilmiş əmək kitabçası itdiyindən etibarsız sayılır.

**Allah rəhmət eləsin**

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov və xəstəxananın həkimlərindən Qasım Əliyev, Sabir Novruzov, Cəbi İsmayılov və Məhərrəm Tarverdiyev iş yoldaşları Etibar Babəbəyliyə, xalası

**SƏKİNƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 881